# Bakıda Avropanın möhtəşəm idman tarixi yazıldı



Azərbaycanın layiqincə ev sahibliyi etdiyi birinci Avropa Oyunları uğurla başa çatdı. İndi bütün dünyanın diqqət mərkəzi məhz möhtəşəm oyunların keçirildiyi ölkəmizə yönəlib. Dünya ictimaiyyəti bir daha əmin oldu ki, cəmi 24 il müstəqillik tarixi olan Azərbaycan qitə miqyaslı mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etmək iqtidarına malikdir.

İlk Avropa Oyunlarının müvəffəqiyyətlə keçirilməsi ölkəmizin beynəlxalq nüfuzunu daha da artırdı. Azərbaycan təkcə iqtisadi deyil, humanitar idman tədbirlərini də yüksək səviyyədə təşkiletmə bacarığını bütün dünyaya nümayiş etdirdi. Yüz minlərlə insan bu yarışları izləyərkən müasir, gündən-günə çiçəklənən Azərbaycanı, qədim Bakını, mavi Xəzər sahillərindəki füsunkarlığı yaxından tanıdı, ölkəmizin turizm məkanları, maddi-mədəniyyət nümunələri, milli-mənəvi sərvətləri haqqında geniş məlumat əldə etdilər.

Bu gün dünyanın nüfuzlu media orqanları birinci Avropa Oyunlarının Azərbaycanda uğurlu təşkilindən, eləcə də oyunların ölkəmizə qazandırdığı böyük dividendlərdən bəhs edən geniş məqalələr dərc edirlər.

Birinci Avropa Oyunları dünya mediasının əsas mövzularından biridir. Məsələn, oyunları Bakıda izləyən "Əl-Cəzirə Türk" televiziyasının saytının idman redaktoru Əhməd Sivasinin "Oyunlar Azərbaycanda nəyi dəyişdirdi?" başlıqlı araşdırma yazısında qeyd edir ki, Cənubi Qafqazın ən böyük ölkəsi olan Azərbaycan son illərdə idmana çoxlu sərmayə yatırıb: "2002-ci ildən indiyə qədər Azərbaycanda 36 beynəlxalq turnir keçirilib. Gələn il "Formula 1", iki il sonra 57 ölkənin qatıldığı İslam Həmrəyliyi Oyunları, 2020-ci ildə isə futbol üzrə Avropa Çempionatının üç qrup oyunları və yarımfinal oyunlarından biri Bakıda reallaşacaq"

Birinci Avropa Oyunları dünya idman tarixində yeni möhtəşəm səhifə açdı. Birinci Avropa Oyunlarının tarixi əhəmiyyəti nəzərə alınaraq Prezident İlham Əliyevin 17 yanvar 2013-cü il tarixli sərəncamı ilə birinci Avropa Oyunlarının keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradıldı. Komitəyə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva sədr təyin edildi. Təşkilat Komitəsinin qərarı ilə "Bakı-2015" Avropa Oyunları Əməliyyat Komitəsi yaradıldı və oyunlara hazırlıq işlərinə start verildi. Dünyanın ən qabaqcıl və təcrübəli mütəxəssisləri ölkəmizə dəvət olundu, yerli mütəxəssislərin birgə səyləri nəticəsində hazırlıq işləri yüksək səviyyədə təşkil edildi. Qısa zamanda görülən işlər dünyanı heyrətləndirdi. Bakıda I Avropa Oyunlarının açılış mərasimi çox yüksək səviyyədə həyata keçirildi, milyonlarla insan mavi ekranda Bakıda keçirilən möhtəşəm idman oyunlarını yaxından izlədilər. 20 idman növü üzrə yarışlar paytaxtımızda 21 idman obyektində keçirildi. Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin titanik səyi nəticəsində ölkəmizdə keçirilən I Avropa Oyunları böyük idman və dostluq bayramına çevrildi.

Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycanın beynəlxalq tədbirlər üçün ideal məkan kimi seçilməsi ölkəmizdəki siyasi sabitliyin, demokratik inkişafın nəticəsidir.

Birinci Avropa Oyunları möhtərəm Prezidentimiz İlham Əliyevin böyük əminliklə qeyd etdiyi kimi, tarixə dostluq, qardaşlıq, həmrəylik bayramı kimi yazıldı.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki qeyd etmişdir ki, Azərbaycanın həyatında tarixi hadisə olan ilk Avropa Oyunlarının keçirilməsi bir daha sübut edir ki, Azərbaycan beynəlxalq idman aləminin aparıcı dövlətlərindən biri kimi dünyadakı mövqeyini daha da möhkəmləndirir. Azərbaycan yeni-yeni dostlar qazanaraq beynəlxalq münasibətlər sistemində yeri və rolunu möhkəmləndirir.

Bir məqamı da qeyd edək ki, ölkəmizdə uğurla başa çatan yarışların 150 ölkədə yayımlanması böyük uğurdur. 150 ölkənin eyni zamanda Azərbaycan reallıqlarını izləmək imkanı əldə etməsi, sözsüz ki, ölkəmizin beynəlxalq nüfuzuna öz müsbət təsirini göstərəcək. Bir sözlə, Azərbaycan dünya birliyi ailəsinin fəal üzvü kimi yerini və mövqeyini daha da möhkəmləndirəcək. Birinci Avropa Oyunlarında qazanılan qızıl medalların sayına görə Azərbaycan idmançıları Rusiya Federasiyasından sonra yarış cədvəlində ikinci yeri tutdu. Həmçinin gümüş və bürünc medallarımızın sayı da yetərincədir.

Qürur hissi ilə vurğulamaq lazımdır ki, I Avropa Oyunlarının açılış və bağlanış mərasimləri uğurla keçdi, təmsilçilərimizin əldə etdikləri parlaq nəticələr Azərbaycanın idman tarixinə qızıl hərflərlə yazıldı.

Birinci Avropa Oyunları Azərbaycanın dinamikliyini, inkişafını dünyaya təqdim etdi. Təbii ki, hər bir uğur növbəti addım üçün başlanğıcdır.

**Asiman HƏSƏNOV,**
**Azərbaycan Tibb Universiteti Tədris Cərrahiyyə Klinikasının baş həkimi, Ümumi cərrahiyyə kafedrasının dosenti.**